**Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* Mədəniyyət Mərkəzinin nəzdində orta musiqi məktəbinin fəaliyyətinin tənzimlənməsi barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* Mədəniyyət Mərkəzinin nəzdində orta musiqi məktəbinin fəaliyyətinin tənzimlənməsi barədə Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan SSR Nazirlər Sovetinin 1967-ci il 24 noyabr tarixli 595 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin Dzerjinski adına klubunun nəzdində yaradılmış musiqi məktəbinin fəaliyyəti Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* Mədəniyyət Mərkəzinin nəzdində davam etdirilsin və onun maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına təmin edilsin.

2. Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən orta musiqi məktəbinin tədris planı Azərbaycan Respublikası Mədəniyyət ~~və Turizm~~ Nazirliyinin Azərbaycan Respublikasının orta musiqi məktəbləri üçün müəyyən etdiyi tədris planına müvafiq olaraq Azərbaycan Respublikasının *Dövlət Təhlükəsizliyi Xidməti* tərəfindən təsdiq edilsin. [2]

3. Həmin orta musiqi məktəbində təhsil alan şagirdlərin sayının son həddi 150 (yüz əlli) nəfər müəyyən edilsin.

4. Müəyyən edilsin ki, orta musiqi məktəbinin işçilərinin aylıq vəzifə maaşlarının məbləğləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* mülki işçilərinin vəzifə maaşlarına uyğun olaraq təsdiq edilir və orta musiqi məktəbinin işçilərinin aylıq vəzifə maaşlarına əlavələr, eləcə də onlara maddi yardım və mükafat qanunvericiliyə əsasən Azərbaycan Respublikası *Dövlət Təhlükəsizliyi Xidmətinin* mülki işçiləri üçün müəyyən olunmuş qaydaya uyğun olaraq ödənilir.

5. "Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin Dzerjinski adına klubunun nəzdində orta musiqi məktəbinin təşkili haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1967-ci il 24 noyabr tarixli 595 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 10 iyul 2008-ci il
155

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )
2. 26 oktyabr 2020-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 oktyabr 2020-ci il, 224 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1307)**

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** ) ilə adında, preambulasında hər iki halda, 1-ci hissəsində, 2-ci və 4-cü hissələrində hər iki halda ismin müvafiq hallarında "**Milli Təhlükəsizlik Nazirliyi**" sözləri ismin müvafiq hallarında "**Dövlət Təhlükəsizliyi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[2] 26 oktyabr 2020-ci il tarixli **419** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 oktyabr 2020-ci il, 224 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 10, maddə 1307**) ilə 2-ci hissədən **"və Turizm"** sözləri çıxarılmışdır.